# DİNİ DİRÇƏLİŞİN FƏLSƏFƏSİ

Məsihin Dördüncü Xəlifəsi
Həzrət Mirzə Tahir Əhmədin
Avstraliyanın Sidney Şəhərindəki Çıxışı

**Dini Dirçəlişin Fəlsəfəsi**

Məsihin Dördüncü Xəlifəsi
Həzrət Mirzə Tahir Əhmədin
Avstraliyanın Sidney Şəhərindəki Çıxışı

Sizə dini dirçəlişin fəlsəfəsini anlatmaq istəyirəm. İnsanları materialist yoldan, onların yaradanı olan Allahın yoluna döndərməsi üçün bağışlaması bol olan Allah tərəfindən bir islahatçı göndərildi. Belə bir islahatçı, insanları Allah yolunda fədakarlığa dəvət edir. Həmin istahatçı, insanları zəhmətə və səbirli olmağa çağırır və onlara xəbərdarlıq edir ki, belə bir həyatı yaşamağa niyyət edənlər, özlərini çətinliklərə hazırlasınlar. O, onları çətin və məşəqqətli bir yola və müxaliflərin əziyyətlərinə hazır olmağa təkmilləşdirər. Həqiqətdə, ilahi və dini dirçəlişin fəlsəfəsi bundan ibarətdir. Ona qarşı gedən dinlərin hamısı xəyaldan ibarətdir. Onu qeyd etmək istərəm ki, İslamda məzhəblərin hamısı bu məsələ barədə birlik təşkil etməzlər. Müsəlmanların çoxu ona inam edir ki, vacib olan dəyişikliklərin hamısı dini dirçəliş şəklində gəldi. Əhmədiyyə Müsəlman Cəmiyyəti ona inam edir ki, bu tarixi həqiqət həmişə eyni olmuşdur və heç dəyişilməmişdir. Müsəlmanlar arasındakı fərqli fikirlərin mövcudluğu, yanlış fikirlərə səbəb olur. Hansı məzhəbə mənsub olursa olsun, fərq etməz, müsəlmanların hamısını bir yerdə cəmləşdirən müştərək ümdə inamı izah etməyin şərt olduğuna inanıram.

Hansı məzhəbdən olursa olsun, hər bir müsəlman Allahın birliyinə və Həzrəti Məhəmmədin Allahın elçisi olduğuna inanar. Hər Müsəlman ona inanar ki, İslam, bəşəriyyətin qurtuluşu üçün yeganə yoldur. Müsəlmanlar ona iman edir ki, axirət gününə kimi İslam, bütün bəşəriyyətin ehtiyaclarına cavab verə biləcək qüdrətdədir. Müsəlmanlar ona inanırlar ki, Həzrəti Məhəmməd vasitəsilə Allah tərəfindən nazil olan İlahi Qanun dəyişməzdir və Quran təqlid edilə bilməz və başqa bir kitabla əvəz edilməz, həmçinin bir neçə və ya nöqtəsi dəxi dəyişdirilə bilməz. Müsəlmanların hamısı, Həzrəti Məhəmmədin axır zaman peyğəmbəri olduğu və bunun axirət gününə kimi dəyişməyəcəyinə inanırlar. Hansı məzhəbə mənsub olursa olsun,

müsəlmanlar onu qəbul edirlər ki, Həzrəti Məhəmməd vasitəsilə ilahi nurla tanış olmaq mümkün olar. Müsəlmanların hamısı bu fikirlə ayaqlaşırlar.

Müştərək tərəflər olsa da, Əhmədiyyə Müsəlman Cəmiyyətinin bu düşüncədən fərqli tərəfləri mövcuddur. Bu fərqli düşüncələrdən biri İslamın zühur etməsi məsələsidir. Digər fərqli düşüncəkər də elə bu əsas fərqdən mənbələnir.

İslamın dirçəlişinə bunun nə qədər təsiri olmuşdur? Bunda necə bir təsir və nə kimi bir enerji mənbəsi müşəhidə edilmişdir? Əhmədiyyə camaatı kimi, digər müsəlmanlara görə bunun sirri, Məryəmin oğlu İsanın və Allah tərəfindən təyin olunan istahatçı İmam Mehdinin ilahi əmrlə gələcəyinə dair cavabda gizlidir. Mütləq surətdə yozulduqda belə bir zühur ediş, iki fərqli fikrin meydana cıxmasına səbəb olur. Əhmədiyyə camaatı, İsanın
Peyğəmbərliyini qəbul edir. Həmin camaat, İmam Mehdininkini də, İsanınkı kiçi mülahizə edir. Biz ona qənaət gətitirik ki, bu peyğəmbərlərin mənasını onlara səthi yanaşmalarla dərk etmək mümkün deyildir. İslamın digər məzhəbləri bu peyğəmbərliyə səthi olaraq yanaşır. Əhmədiyyə camaatının digər ümdə İslam məzhəblərindən fərqləndirən ən mühüm fərq elə burada özünü biruzə verir.

## Peyğəmbərliyin Keçmişi Barədə

Müsəlmanlar və ilk Səhabələr Həzrəti Məhəmmədin məlumatla təmin olunmadığı yolundakı iddiaları rədd edirlər. Həzrəti Məhəmməd ilahi əmrlə, bundan 14 əsr qabaq peyğəmbər olaraq təyin olundu ki, ona görə müsəlmanlar 72 məzhəbə bölündülər. O vaxtdan Həzrəti Məhəmməd əsrimizdə şahid olduğumuz vəziyyəti qabaqcadan bildirmişdir. Həzrəti Məhəmməd, özünün hədislərində zəmanəmizin təsvirini belə izah edir:

"Müsəlmanların adından savayı bir şey qalmayacaq. Müsəlmanlarla dolu olan məscidlər imamsız qalacaq. Onların din alimkəri göy qübbənin altında kainatın ən yaman varlıqları olaraq qalacaqlar."

Buna baxmayaraq, Həzrəti Məhəmməd bu qədər mənfi mənzələylə yanaşı cox böyük şeylər də söyləmişdir. Bu qədər böyük fəlakətli vəziyyətə rəğmən İslamı qəbul edənlər yer üzündən tamamən iyib batmayacaq.

"Mən onların başlanğıc və Məryəmin oğlu İsa da onların axırında durduqda, mənim ümmətim necə məhv ola bilər?"(Məshəd Əhməd, Kanzal Amal. Cild 7, səhifə 203) Daha sonra o, davamla bildirir ki:

"Məryəmin oğlu aranızdan ayrılandan sonra, halınız necə olar, o aranızdan biri kimi sizə bələdçi olacaq."(Buxari Peyğəmbərlər Kitabı) Peyğəmbər bu barədə xəbərləri belə buyurur:

"Həyatımı öz ixtiyarında saxlayan, yaradana and içirəm ki, Məryəmin oğlu aranızda duracaq və ədalətlə hakimlik edəcək. "(Buxari, Peyğəmbərlər Kitabı) Həzrəti Peyğəmbər, İmam Mehdinin də Məryəmin oğlu İsa ilə yan-yana olacağından bəhs edir.

Ona görədir ki, Əhmədiyyə camaatı da İslamın dirçələcəyinə və onun cahanşümul zəfərinə inanan İslamın məzhəblərindən biridir ki, o eyni zamanda, İsa ilə bərabər İmam Mehdinin də zühur edəcəyinə inanır. Ona görə də o, Peyğəmbərliyin yozulması məsələsində digər məzhəblərdən fərqlənir. O bildirir ki, Peyğəmbərlik, ilahi qanunun işığı altında mülahizə edilir və qabaqki peyğəmbərlərin tarixi ilə bağlı olut. Bunun ziddinə, digər müsəlman məzhəbləri bildirirlər ki, Oeyğəmbərliyin əbədi aləmlə bir münasibətu mövcud deyildir.

## Əhmədiyyə Cəmiyyətinə Mənsub Olmayanların Təsəvvürü Barədə

Bizə qarşı olanların hamısının bu məzhəbə müxalif olmasına baxmayaraq, iqtisadi və siyasi cəhətdən üstünlüyünü qabağa çəkəcək,

İslamdakı islahatı mühafizə edən ideyamızı izah etməyə səy göstərəcəyəm. Bəlkə də onun bir izahı vardır. Hakimiyyət üçün şəhvətli və qızıl üçün acgözlü olmaq, insanın yaradıldığı gündən bu yana düçar olduğu ənənəvi çəkişmənin rəmzidir. Milli yüksəlişin zirvəsinə çatmaq, bəlkə də iqtisadi və siyasi tənəzzülün başlanğıcıdır. Onlara görə, ilahi ədalət təbii olaraq bu nəticəni yaradar. Bu özgələrinin fikrinə görə, demək olar ki, İslamın dirçəlişidir. Bu fikrə görə, Məsih, İslamın siyasi zəfərini yaradacaq və İmam Mehdi də onun iqtisadi üstünlüyünü bəxş edəcək.

Qabaqca, Məsihin nazil olmasına qarşı onların təsəvvürünü izah edim. Onlar, Quranın İsrail oğullarının bir peyğəmbəri kimi təsvir etdiyi Məryəmin oğlu İsanın göydən enəcəyinə inanırlar. O dərhal qılıncını qurşanaraq, İslamın düşmənlərinin hamısını həlak edəcək. İlk dəfə məhv olunacaq şey, Xaç olacaq. Əslində fiziki olaraq yox, o, mənəvi olaraq yox olacaq. O, Xristianların simvolunu təxrib edərək onu məhv edəcək və Xristianların heç bir izi belə qalmayacaq. Heç bir yanda, kilsədə, evdə və ya insanların döşündən asılı olan heç bir xaş artıq olmayacaq, onların hamısı yoxa çıxacaq. Onlara görə, onun görəcəyi ikinci mühüm iş, istər evdə bəslənsim, istərsə də vəhşi olaraq təbiətdə yaşasın, nə qədər donuz varsa onların hamısını məhv etməkdən ibarət olacaq. Beləliklə də, o andan etibarən xristianlarım heç biri nə xaç daşıyacaqlar, nə də süfrələrində donuz əti yeyəcəklər. Ondan sonra İsa, xristianları nəinki təkcə mənəvi cəhətdən sazlayacaq, eyni zamanda onların fiziki sağlamlıqlarını da bərpa etmiş olacaq.

Onun görəcəyi üçüncü vəzifə, Xristianlara qarşı gedən şeytanı məhv etmək olacaq. İndi soruşmaq lazımdır, bu dəccal və ya şeytan kimdir? Xristianlara görə o, bir eşşəyin üstündə zühur edəcək və tək bir gözü olan, eybəcər bir varlıqdır. Onun boyu o qədər hündür olacaq ki, başı dumandan ucaya qalxacaq və göyə dəyəcək. Peyğəmbərlərin hamısı bu dəccal barədə xəbərdar edilmişlər. Şeytan yer üzündə bu vəziyyətdə olarkən, Məsih göydən yerə enəcək. Məsih Dəccalla Dəməşq yaxınlığında bir yerdə tutaşacaq və dəccalı o anda məhv edəcək. Daha sonra o bütün dünyanı öz əlinə keçirəcək. Məsih bunu yerinə

yetirərkən, dünyanın zövq və idarə edilməsi işini Müsəlmanlara təhvil verəcək.

Həmin vəziyyət, onların Müsəlmanların gücünü necə yozduqlarını göstərir. Necə olsa da onların bu mövqeyi Müsəlmanları hər növ çəkinmədən kənar qılır. Hər kim öz gücündən istifadə edərək, dünyanın hakimiyyətini öz əlinə keçirəcəyini iddia edirsə səhv iş görür. Çünki, bunu etmək üçün, o vaxt heç bir siyasi gücə və ya təzyiqə ehtiyac olmayacaq. Onlar artıq sülh və səadət içərisində yaşayacaqlar. Hər şey bir tərəflik olsa, demək olar ki, ilahi güc göydən yerə enəndə, onlar, səadət muştuluğunun nazil olduğuna inanırlar. O göydən enəndə, qabaqca donuzu gəbərdəcək və sonra isə Xaçı dağıdacaq. O, Şərqlə Qərbin əlində nə qədər güc varsa hamısını məhv edəcək. Daha sonra onu gözləyən böyük müsəlman kütləsinə xitabən qayıdıb deyəcək ki, "yaxın gəlin, ey Allahın əsgərləri, buraya yaxın gəlin. Ey əziz olanlar, gəin, buraya gəlin. Buraya gəlin və bu dünyanın hakimiyyətini öz səlahiyyətinizə götürün." Müsəlmanların inandığı bu şeyə, ona görədir ki, Əhmədiyyə Cəmiyyəti qarşı gəlir.

İkinci məsələ, Əhmədiyyə Camaatına daxil olmadan müsəlmanların iqtisadi cəhətdən dirçəlməkdə olan mövqeləri barədə olacaq. Digər məzhəblərə inanan İslam alimlərinin iddiası odur ki, Müsəlmanların iqtisadən inkişafının çarəsi, Peyğəmbərlə üz-üzə durmaq və ya fədakarlıq etməkdən asılı deyil, onun çarəsi Mehdinin zühurundadır. İmam Mehdi Məsihin müasiri olacaq. Onun gəlişi ilə zühur edəcək ən mühüm iş, dünyadakı müsəlmanlara arzu etdikləri qədər insan bəxş edilməsi olacaq. Onun insanının heç bir sərhəddi olmayacaq. Bu böyük sərvət Müsəlmanların daha da dağılmasına təkan verəcək. Elə bir vəziyyət yaranacaq ki, artıq gamı mal və mülkə qarşı bəslədikləri böyük rəğbət və qızıla qarşı hiss etdikləri az gözlülük aradan götürüləcək. Bəziləri tərəfindən izah ediləcək Müsəlmanlatın iqtisadi çətinliyinə bu vəziyyət son qoymuş olacaq. Bu inama görə, İmam Mehdinin zühur etməsinin elə özü müsəlmanların iqtisadi çətinliklərinə son qoyulmasının çarəsidir. Gözyaşı axıtmağa və tər tökməyə artıq heç də ehtiyac olmayacaq. Dünyanın gizli xəzinə və dəfinələrini axtarmaq artıq əhəmiyyətini itirəcək. Bundan əlavə,

atomun mərkəzini tapmağa və ya fəzanın dərinliklərini kəşf etməyə heç də ehtiyac hiss olunmuyacaq. Bunların hamısına Mehdinin zühur etməsi yeganə çarə olacaq. Yenə qeyd etmək lazımdır ki, Əhmədiyyə Cəmiyyətinin mənsubları, belə bir inamı xeyli sadəlövh, xam və qəbuledilməz hesab edirlər.

Əhmədiyyə Cəmiyyətinin göndərilən Peyğəmbərlərə və enən Məsih və Mehdinin mövcudiyyətinə bir etirazı olmamasına baxmayaraq, həmin cəmiyyət onlara bir ədəbi məna verilməsi yolunda aparılan səy və qeyrəti necə deyərlər, məsələyə laqeyd yanaşmaq kimi qəbul edir. Biz ona inam edirik ki, bu, Həzrəti Məhəmmədin qeydlərimə lazımi qədər əhəmiyyətlə yanaşmamaq və onun anlatmaq istədiyi fəlsəfəni tam mənasında başa düşməmək mənasındadır. Öz aləminə daxil olan insanlarım mənəvi aləminə açılan gözü, bu aləmi asanlıqla görə bilməz.

Əhmədiyyə Müsəlmanları, ona inam edirlər ki, Məsih ilə əlaqədar mövzuların hamısı xristianlığa ziddir. Məsih, İsrail oğulları arasından göndərilən bir Peyğəmbər deyildir. Əhmədiyyə Müsəlmanları, İsa Peyğəmbərin çarmıxa çəkiləndən sonra, normal olaraq, almış olduğu yaralardan dolayı öldüyünə inanır. Məsih isə, Həzrəti Məhəmmədin tərəfdarları arasından daha sonra nazil olmuş bir şəxsdir. Onun İsa Peyğəmbər ilə eyni xüsusiyyətləri daşımasına istinad olunaraq, o, "Məryəmin oğlu Məsih" olaraq adlandırılmışdır. Necə ki, böyük dramaturq Şekspiri adlandırıblar, o da belə bir şey olub. Xaç ilə əlaqədar mövzu da belədir. Ona təkcə gülmək lazımdır. Sözün həqiqi mənasında, Məsihin Xaçla əlaqəsi yoxdur. O, Xristianlığa güclü və böyük bir münaqişədən sonra qələbə çalacaq. Xaçın təxrib edilməsi, Xristianlığın fəlsəfi bir mövqeyi kimi qalır. Eynisilə, donuzla bağlı məsələ də, təkcə fiziki mənada götürülmür. O, Qərb mədəniyyətinin insanları bədbəxtliyə məruz buraxan cəhətlərini anlatmağa cəhd edir. Donuz kəlməsindən əsl məqsəd, Avropa və Amerikanı bədbəxtliyə düçar edən "seks" anarxiyası və terrorundan bəhs etməkdir. Bu, sadə bə günahsız uşaqları belə zəhərləyən bir hərəkətin elə özüdür. Bu mövzuda, Məsihin yaban donuzu və ya evcil donuzdan bəhs etdiyi aydın deyildir. Bu Allahın bir peyğəmbərinin çox qəribə bir təsviri olur. Bu bizə, qoyun və malqaranı Yunan ordusunun komandanları

fərz edərək öldürən, Yunan mifologiyasının qəhrəmanlarından Ayaksı xatırladır. İsanın əlehində olanlar da Məsihə inanır, xaç və donuzun nəticədə bir simvol olduğuna inanırlar. O, təkcə dünyanı yox, eyni zamanda fəzanı da sövq və idarə edən bir millətin rəmzidir. Xaç və donuz, bu milləti çətin vəziyyət qarşısında buraxan simvollar kimi qəbul olunur. Belə düşüncələrin inamına görə, Xristianlığa qarşı olanların sağ gözü kor, sol gözü isə daha yekə və parlaq olacaq. Bu həmin millətin simvolik ilahi bir işıqla aydınlanacağına bir dəlil kimi göstərilir.

Nəticə etibarilə demək olar ki, Əhmədiyyə Müsəlmanları İsaya qarşı gələnlərin nəticədə "eşşəyin" də bir simvol olacağına, daha qabaq nəql olunacaq günün qalib çatması kimi bir rəmzə etibar edir. Bu haqda edilən izahatların hamısı eşşəyin Qərbin anlatdığı kimi, onun xüsusiyyətlərinin tamamını göstərir. Daha qabaqca ənənəvi olaraq izah edildiyi kimi eşşəyin xüsusiyyətləri xeyli aydın görünür. Məsələn, o atəşi yeyəcək, yerin üzərində bir tərəfə hərəkət edəcək, hətta, dənizin üzərində və göydə yeriyəcək, onun elə bir sürəti olacaq ki, yerdə bir neçə ayda, tamamlana biləcək səfəri bir neçə dəqiqə, fəzadakı səfərini isə bir neçə sastda tamam edəcək. Onunla birlikdə səfərdə iştirak edəcək insanlar, onun dalına minmədən, onun qarnının altında səfər edə biləcəklər. Bu eşşək hərəkət etməzdən qabaq hamıya xəbər veriləcək və onların yerlərinə oturmaları xahiş olunacaq. Bu vəziyyət, Həzrəti Məhəmmədin bir həqiqət olduğuna və onun söylədiklərinin doğruluğuna dəlil təşkil edir.

Əhmədiyyə Müsəlmanlarına görə, İmam Mehdinin nazil olması ilə Peyğəmbərlik arasındakı münasibət də simvolikdir. İmam Mehdinin müsəlmanlar arasında bölüşdürəcəyi zənginlik, dünyəvi bir zənginlikdən yox, mənəvi bir ağlın yoluna istinad edən bir zənginlikdir. Qabaca rədd edib sonradan onu qəbul edənlər, bunun necə bir zənginlik olduğunu maraq edən bir şəxs üçün o, materiala yox, tamamilə mənəviyyata istinad edən bir zənginlikdir.

Ona görədir ki, Əhmədiyyə Müsəlmanları yuxarıda izah edildiyi kimi, İslamın digər məzhəbləri tərəfindən qəbul edilən dini fəlsəfəni qəbul

etmir. Əhmədiyyə Müsəlmanları onu qeyd edir ki, bu dini fəlsəfə, Quranda əmr olunanlar, Peyğəmbərlərin tarixində qeyd olunan həqiqətlər və Həzrəti Məhəmmədin özünün birbaşa həyata tətbiq etdiklərilə düz gəlmir, ancaq onlatın bir variantı kimi özünün biruzə verir. Əhmədiyyə Müsəlmanları bunun, millətlərin hərəkət qabiliyyətini doğrudan doğruya yavaşlatdığına və insanların bir xəyal dünyasında yaşamasına sabab olacağına inanır.

## Əhmədiyyə Cəmiyyətinə Görə Dinin Dirçəlişi

Bu fəlsəfənin, dünyanın digər dini fəlsəfələrindən fərqli bir cəhəti yoxdur. Tarixin himayə etdiyi yeganə dini fəlsəfə elə budur. Adəm Peyğəmbərdən bəri, dünya dinlərində Peyğəmbərlərin hamısının cənnətə vasil olduğu qeyd olunur. Lakin, onların heç birinin dünyaya qayıtdığı barədə hələlik heç bir qeyd yoxdur.

Beləliklə, bunların cənnətə biri tərəfindən aparılmasına rəğmən, onların bu uzun vaxt gözdən itmələrindən sonra, yenidən dünyaya qayıtmalarına dair bir dəlil mövcud deyildir. İslahatçılar həmişə insanlardan ayrılar və yenə onlar insanlar tərəfindən rədd və əziyyət edilər.  İnsanlar onları ilk başlanğıcda, necə deyərlər, xüsusi bir mərasimlə qarşılamazlar. онлар инсанлар тэрефиндэн рэдд вэ эзид'д'эт едилэр. гаршыламазлар. Onlara heç bir vaxt zühur etdikləri zaman gül dəstəsi təqdim edilmədi. Əksinə, onlar ki, Allah tərəfindən göndərildiklərini elan etdilər, onda xalq tərəfindən necə deyərlər, bu işlədikləri cinayətə görə cəzalandırılmış və onlar işgəncələrə tabe tutulmuşlar. Onların yolu həmişə tikanlarla dolu olmuş. Onların başına gül ələnmiş və daşa basılmışlar. Onların başına tikanlardan düzəldilmiş tac sancılmışdır. Onlara qarşı ağıla sığmayan işgəncələr edilmişdir. Onlar Taifdən qayıdanda müşahidə oluna bilər ki, onların hamısı başından dırnağına qədər qana bələnmişdi. Onları müharibə meydanında yarı ölmüş bədənlərindən qanlar axarkən, cəsədlərin altından sağ olaraq həyata qayıtmış insanlar kimi müşahidə edə bilərsiniz.

Onları izləyənlərin də eynisilə belə işgəncələrə məruz qaldıqları görülür. Onlara hərtərəfli işgəncələr tətbiq olunmuşdur. Onlar ayqlarından bağlanaraq yerlərdə süründürülmüş, günəşin altında isti qumların üstündə buraxılmışlar. Onlar canlı canlı, nar kimi kömür atəşinin üzərinə və tonqalların közünə atıldı və bağıra bağıra ölmələrinə tamaşa edildi.

Onlar evlərindən bayıra tullandılar. Sürgünə göndərildilər. Aclıqla təhdid edildilər. Onlar qılınclara sancıldılar. Arvadları özlərindən və özləri də arvadlarından didərgin salındılar. Valideynlər zorla öz uşaqlarından ayrılmaq məcburiyyətində qaldılar. Həyatın onlara bəxş etmiş olduğu hər növ insan hüququndan məhrum buraxıldılar. Onlara nə ibadət etmələri və nə də məscid tikmələri üçün icazə verildi. Onlar öz inamlarını acıqlamaqdan belə məhrum buraxıldılar. Hətta onlar özlərinin əqidələrini belə dilə gətirməkdən çəkindilər və qorxdular.

Belə bir insan, yeni bir mənəvi həyat yaşayacağı vədilə təminat altına alındı. İnsanı həqiqi mənada dinin dirçəlişinə aparan yol budur. Həzrəti Məhəmmədin həyatında müşahidə etdiyimiz hadisə elə bundan ibarətdir. Həzrəti Məhəmməddən qabaq gələn peyğəmbərlər də eyni həyatla üz-üzə qalmışlar. Bu aydınlıq yola görədir ki, Peyğəmbərlər həmişə öz millətinin dirçəlməsinə kömək edə bildi. Bu, Adəm Peyğəmbərin zamanından, Həzrəti Məhəmmədə kimi davam edən dinin, həqiqi fəlsəfəsini təşkil edir. Məsələ belə olduqda, Yaradanın vaxt alan belə bir işi yerinə yetirməsini necə izah edə bilərik? Onda Müsəlmanlar bir damcı qanını belə tökmədən və qeyrət göstərmədən dünyanı gələcək nəslə necə miras buraxacaq? Biz onların bəzi şeyləri fövtə vermədən müvəffəq ola biləcəklərinə necə inam edə bilərik? Qabaqcadan vəd edilən və Əhmədiyyə Müsəlmanları Cəmiyyətinin banisi, bəşəriyyəti xəbərdər edərək, vəziyyəti belə izah edir:

"Lağa qoyulmadan heç bir peyğəmbər olmamışdır. Vəd edilən Məsihə gülmələrinin əsas səbəbi budur." Allah Quranında buyurur ki:
"Heyif o qullara ki, onlar, nə vaxt özlərinə bir peyğəmbər gəlsə, onu lağa qoyurlar." (Quran - 36:31)

"Ona Allahın özü də işarə edir ki, hər peyğəmbər lağa qoyulmuşdur. İndi, insan kütlələrinin qarşısında göydən mələklər tərəfindən fiziki olaraq endirilən bir şəxsi kim lağa qoya bilər? Ağlın yolu onu inkar edə bilər ki, göydən enəcəyi vəd edilən Məsihin nazil olması qəbuledilməzdir. Yaddan çıxartmamaq lazımdır ki, heç kəs göydən yerə enə bilməz. Mənə qarşı gedənlər, indi sağdırlar və onlar öləcəklər. Onlardan heç biri bu dünyada sağ olan zaman Məryəmin oğlu İsanın göydən yerə qayıdacağını görə bilməyəcəklər. Onların uşaqları, onların da nəvə və nəticələri də öləcəklər və Məryəmin oğlu İsa yenə də göydən yerə enməyəcək. Sonra, Allah, İsa xaçı ilə göyə qalxandan sonra, onun göydən yerə enmədiyini görənlərin ürəyini qorxu ilə dolduracaq. Daha sonra insanlar bu düşüncədən yorulacaqlar. Bu hadisənin üzərindən üç əsr keçməzdən qabaq, Xristianlar və Müsəlmanlar bu düşüncədən vaz keçəcəklər. Onlar dünyada bir tək dinə sitayiş edəcəklər və bir rəhbərə inanacaqlar. Mən bir toxum əkmək üçün gəlmişəm. Bu toxum mənim əlimlə əkilmişdir. O böyüyəcək və meyvə verəcək. Buna dünyada mane ola biləcək heç bir qüvvə yoxdur." (Təzkirətul Şahdatain. Səhifə 64-65)

Uzaq görən hər bir insan onu asanlıqla fəhm üdə bilər ki, Əhmədiyyə Cəmiyyətinin ideyası dinlərin tarixi üzərində qurulmuş, digər dini fəlsəfələr isə əfsanə və ziddiyyətlərlə dolu dini dirçəlişin tarixi üzərinə istinad etmişdir. Biz onu yaxşı bilirik ki, Allah tərəfindən vəzifələndirilən hər bir şəxs mütləq surətdə müxalifət qasırğası ilə üz-üzə qalmışdır. Allah tərəfindən vəzifələndirilən peyğəmbərlərin hamısı insanlara əbədi bir həyat vəd etmişlər, lakin buna qarşı gedənlər saxta həqiqəti, mənəvi böhranı, həqiqi mənəvi həyata tərcih etmişlər. Həqiqətdə bu dinlərin doğmasının təkamülünü göstərir. Nə vaxt ki, dinə saxtakarlıq bə çirklik bulaşdı, onda dinin dirçəlişi də zərərə məruz qaldı. Allah tərəfindən göndərilən islahatçılar və mehdilər də, Allahın göndərdiyi peyğəmbərlər kimi əzab və işgəncələrə məruz qaldılar. Allah, bir millətin mənəvi cəhətdən nəsibini bağlayan kimi, onda iki ayrı qrup peyda oldu. Bu qruplardan biri, həqiqəti gördü və digəri də ona qarşı getdi. Bu qruplardan heç biri hərəkət tərzini dəyişmədi.

Quran bu haqda aydın dəlillər gətirir. Quran bizə bu xüsusları göstərmişdir ki:

**a** - Dinlər, Allah tərəfindən göndərilən islahatçılar tərəfindən təşkil olunmuş və təkamül etdirilmişlər. Dünyada heç bir alim belə bir dini, verdiyi konfranslar və ya etdiyi münaqişələr nəticəsində yarada bilməmişlər.

**b** - İlahi yoldan təyin olanlar, xalq tərəfindən rədd olunmuş və onlara qarşı çox pis rəftar edilmişdir.

**c** - Bu islahatçılar həmişə şiddət və zorakılığa qarşı olmuşlar. Onlar özlərindən qabaq gələn ataları və babalarını dindən sui-istifadə etməklə təqsirləndirmişlər. Onlar, bu həqiqətlərdən ötrü dindən dönən kimi hesab edilmişlər.

**ç** - Müxaliflər tərəfindən irəli sürülən fikirdə, dinindən dönənin qətl edilməsi vacib olduğu iddia olunmuşdur. Bu xüsusda islahatçı liderlər ya dinə geri qayıtmaq yaxud da ölümdən qurtulmaq üçün sürgün təhdidinə məruz qalmışlar.

**d** - İslahatçı bir şəxs, heç vaxt zorakılıqdan tərəfdarlıq etməz. Onların tərəfdarları böyük bir ruh yüksəkliyi ilə ölsə və ya süegün edilsə belə fikirlərində israrla dayanar.

**e** - İslahatçılar, tərəfdarlarına böyük bir güc və ya onlara etibarlı mövqelər vəd etməzlər. Onlar insanları sərvətlə aldatmazlar, onlar insanları mənəvi cəhətdən böyük əziyyət və cəfaya dözməyə dəvət edərlər. Bir zəngin əlindəki sərvətin Allah yolunda ona yardım edəcəyinə inanar. Lakin, ilahi əmrin gücü onlara onu sübut edər ki, zənginlik müvəqqəti bir gücdür.

Quranın əmr etdiyi dinin dirçəlişi belə təzahür edir. Adəm Peyğəmbərdən tutmuş, Məhəmməd Peyğəmbərə qədər Allah tərəfindən göndərilmiş peyğəmbərlərin hamısı eyni mərhələdən keçmişlər. Bu peyğəmbərlər öz millətlərinə özlərinin həyatını fövtə

verərək, böyük əziyyət və məşəqqətlərə dözərək, kömək edib yol göstərmişlər. Onlar haqla sevməsini öyrətmişlər. Onlar sevgini, ən çətin işlərin müvəffəqiyyətlə başa çatdırılmasında bir vasitə kimi qəbul etmişlər. Bu sevgi, ölmüş bir millətə həyat bəxş edən, məvəvi bir ruhdur. Bu insanın təbiətinə, hərəkət və zəkasına böyük təsir buraxan bir şeydir. Sevgi, Əhmədiyyə Müsəlmanlarının özlərinə qanun qəbul etdikləri bir yoldur.

Özünün də müşahidə etdiyi kimi, Əhmədiyyə Müsəlman Cəmiyyətinin getdiyi yol, insanlar üçün yeni icad edilən bir dini dirçəlişin təzahürü deyildir. Bu yol, Qurani Kərimdə də əmr olunduğu kimi indiyə qədər diqqətlə nəzərdən saxlanmış, tarixi bir hərəkətdir. Hər din kimi, bu da həqiqətin əbədi prinsipləri üzərinə istinad edən həqiqi bir dindir. Quran bu haqda buyurur ki:

"Dinə girmək üçün şərt yoxdur. İman və küfr qəti olaraq aydın olmuşdur. Artıq hər kim sağlıqla sövq edənləri tanımaqdan imtina edib, Allaha iman edərsə, onda, qonması mümkün olmayan bir yerdən tutmuş deməkdir. Allah kamilliyi ilə eşidən və biləndir." (Quran - Bəqərə:257)

"Heyif o qullara ki, onlar, nə vaxt özlərinə bir Peyğəmbər gəlsə, mütləq onu lağa qoyurlar." (Quran - Yasin:31)

"Şübhəsiz, Allah bir cəmiyyətə bəxş etdiyi nemətini, onlar yaxşılığı yamanlığa çevirməzsə, pozan deyil." (Quran - Rad:12)

Şüayib Peyğəmbər öz xalqı tərəfindən təhdid edilən zaman:

"Ey Şüayib! Biz səni və sənə inananları, bizim dinimizə dönməzsən şəhərimizdən qovacayıq. Şüayib belə dedi: Sizin dininizdən xoşumuz gəlmədiyi halda olsa belə, bunu yenə edəcəkmisiniz?" (Quran - Əraf:89)

Nuh Peyğəmbərin xalqı da o, onların dinini qəbul etməzsə daşa basılmaq qorxusu ilə hədələnmişdir:

"Onlar dedilər ki, Ey Nuh! Əgər sən dediyindəb vaz keçməzsən onda sən daşa basılanlardan olacaqsan." (Quran - Şüəra:117)

Bu növ təhdidlər təkcə bir neçə peyğəmbər üçün məhdudlaşdırılmamışdır. Quran xalqların peyğəmbərlərə xalqın rəftarı barədə belə xəbər verir:

"O inkar edənlər peyğəmbərlərinə dedilər ki, sən bizim dinimizə dönməzsən, səni mütləq yurdumuzdan çıxardacayıq." (Quran - İbrahim:14)

"Onlar dedilər ki, əgər bir iş görəcəksəniz, onda bunu yandırın və ilahlarınızın qisasını alın." (Quran - Ənbiya:69)

İsa Peyğəmbər, İncildə əmr olunanlarla razı qalmayan Yəhudilər tərəfindən çarmıxa çəkildi. Lakin o həqiqəti söyləməkdən imtina etmədi.

"Elə fərz etməyin ki, mən şəriəti və ya peyğəmbərləri yıxmağa gəldim. Mən yıxmağa yox, tamam etməyə gəlmişəm.
Düzünü sizə deyim ki, göy və yer köçüb getmədən, hər şey olana kimi, şəriətin ən kiçik bir hərf və ya nöqtəsi dəxi yox olmayacaq." (İncil - Matta:17-18)

"Yəhudi alimləri ilə İsanın razılaşa bilmədikləri mövzu o idi ki, "İlyas Peyğəmbər göyə uçub cənnətə getmişdi".(İncil - 2 Qrallar:11) Yəhudi alimlər bu adətin mənasını izah etmək məsələsində ixtilafa düşmüşdülər. Onlar İlyasın fiziki olaraq İsanın nazil olmasından qabaq cənnətdən yerə endiyinə inanırdılar. İsa Peyğəmbər isə bunun əsl mənasında fiziki olaraq cənnətdən enməyin qəsd olunmadığını, bunun mənasının simvolik olduğunu qeyd edirdi. İsa Peyğəmbər, Zəkəriyyənin oğlu vaftizçi Yəhyanın, İsanın özü olduğunu qeyd edirdi və onun göydən yerə endiyini bildirirdi. İsanın özü onu yaxşı bilirdi ki, Yəhya fiziki olaraq dünyada anadan olmuşdu və cənnətdən gəlməmişdi. Bu suala verilən cavabda isə o, "Pəki, nəyə görə yəhudilər

iddia edirlər ki, İlyasın qabaqcadan gəlmiş olması gərəkdir." İsa buna cavab verir:

"Onsuz da İlyas gələr və hər şeyi yerinə qoyar. Lakin mən sizə deyirəm ki, Onsuz da İlyas gəlib və və onu tanımadılar, lakin ona hər istədiklərini etdilər. Eynisilə Adəm övladı da onlardan əziyyət çəkəcəklər. İsanın özlərinə vaftizçi Yəhya üçün söylədiklərini şagirdlər o vaxt anladılar." İncil - Matta 17:10-13)

Nəticə etibarilə qeyd etmək lazımdır ki, Həzrəti Məhəmmədin özü də böyük ziddiyyətlərə məruz qalmışdır. Bu haqda Həzrəti Məhəmməd buyurur ki, "Mənim düçar olduğum qədər heç bir Peyğəmbər əzab və cəfa çəkməyib"

Həqiqət odur ki, dinlər tarixi bizə Allah tərəfinfən göndərilən Peyğəmbərlərin hamısının insan olduğunu öyrədib. Onlar bəzi əfsanələrdə olduğu kimi qəhrəmanlar donunda göydən fiziki olaraq enməmişlər. Onlar həmişə əzab və cəfalara məruz buraxılmışlar. Bu Peyğəmbərləri izləyənlər, özgələrinin yox, özlərinin əmək və qanları bahasına böyük nailiyyətlər əldə etmişlər.

# DİNİN DİRÇƏLİŞİ

HƏZRƏT MİRZƏ TAHİR ƏHMƏD

(İslamda Əhmədiyyə Hərəkatının Ali Rəhbəri)

Bu, İslamda Əhmədiyyə Hərəkatının başçısının dinlərin ilahi müdaxilə ilə hər zaman canlandığına dair bir müraciət mətnidir. İnsan materializmə aludə olduqda, Allah bəşəriyyəti bərpa etmək və insanı Allah yoluna qaytarmaq üçün islahatçı kimi seçilmiş birini təyin edir. Bu, bəşəriyyət tarixinə damğa vuran bir nümunə olmuşdur.

Müsəlmanlar arasındakı hər hansı bir fikir ayrılığının yanlış təəssürat yaratmaması üçün natiq, bütün məzhəblərdən olan müsəlmanların ortaq fikirlər söylədiklərini qeyd etdi. Hələ Əhmədilər, digər müsəlmanlardan Məsihin vəd edilməsi ilə əlaqədar peyğəmbərliyin təfsirində fərqlidirlər. Əhmədiyyə təfsirinə görə belə peyğəmbərliklər hərfi mənada qəbul edilməməlidir. İslahatçılar heç vaxt göydən yerə enməyiblər. Şagirdləri ilə birlikdə həmişə sülhü təbliğ etmiş və bütün təqiblərə baxmayaraq həmişə öz vəzifələrində müvəffəq olmuş adi insanlardır.

İslamda Əhmədiyyə Hərəkatının Qurucusu da ilahi olaraq təlimatlandırıldı və onun güvəndiyi Əhmədiyyə Dinlərin Dirçəlişi Fəlsəfəsini dəstəkləyən Qurani Kərim idi.